# Əllərinlə belə etməyin sənə kifayət idi". Sonra əlləri ilə bir dəfə yerə vurdu.Sonra sol əlini sağ əlinə sürtdü, əllərinin üzərinə və üzünə məsh çəkdi

Ammar bin Yasirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) məni bir iş üçün göndərdi. Mən də cünub oldum,lakin su tapa bilmədim, buna görə də heyvanın torpaqda yuvarlandığı kimi yuvarlandım. Sonra Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldim və bunu ona xəbər verdim. O, dedi: "Əllərinlə belə etməyin sənə kifayət idi". Sonra əlləri ilə bir dəfə yerə vurdu.Sonra sol əlini sağ əlinə sürtdü, əllərinin üzərinə və üzünə məsh çəkdi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Ammar bin Yasiri (Allah ondan razı olsun) bəzi ehtiyacları üçün səfərə göndərdi. Və o, qadınla yaxınlıq etmək və ya şəhvət səbəbi ilə məni çıxdığına görə cünub oldu. Lakin qüsl almağa su tapmadı. Və cənabət üçün təyəmmüm almağın (icazəli olduğu) hökmünü bilmirdi, yalnız onun kiçik hədəs üçün olan hökmünü bilirdi. O, da ictihad etdi və zənn etdi ki, kiçik hədəsdən təyəmmüm alarkən yerin üzərindəki torpaqla bəzi dəstəmaz əzalarına məsh etdiyi kimi, su ilə muqayisə olaraq, cənabətdən təyəmmüm alarkən də bütün bədəni torpağa sürtmək lazımdır. Bu səbəblə bütün bədənini torpağa batırıncaya qədər torpağın içində çevrildi və namaz qıldı. O, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldikdə doğru olub-olmadığını bilmək üçün bunu ona bildirdi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də ona sidik ifrazı kimi kiçik hədəs və cənabət kimi böyük hədəsdən necə təmizlənməli olduğunu izah etdi: Bu iki əli ilə torpağa bir dəfə vurmaq, sol əliylə sağ əlinə, əllərinin üzərinə və üzünə məsh etməkdir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee